# Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Riçard Morninqstar Qəbələdə



Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Riçard Morninqstar Qəbələ rayonunda səfərdə olmuşdur. Hörmətli qonağı rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev qəbul etmişdir.

Qəbələ rayonunda olmasından, onun səmimi qarşılanmasından məmnunluğunu qeyd edən səfir rayonun onun üçün böyük maraq doğurduğunu ifadə etmişdir.

İkitərəli görüşdə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev rayonun tarixi, iqtisadiyyatı, mədəniyyəti, kənd təsərrüfatı, əhalinin məşğuliyyəti, son zamanlar rayonda aparılan geniş abadlıq və quruculuq işləri barədə səfirə ətraflı məlumat vermişdir. Qeyd olunmuşdur ki, bu gün Qəbələ irimiqyaslı tədbirlərə ev sahibliyi edir.

Rayonda istehsal müəssisələri ilə yanaşı turizm sektorunun inkişafı istiqamətində də mühüm işlər görülür. Diqqətə çatdırılmışdır ki, rayona gələn turistlərin şən və mənalı istirahəti üçün burada hər bir şərait yaradılmışdır.

Riçard Morninqstar qeyd etmişdir ki o, bu il may ayının 13-də də Qəbələdə olmuşdur. Həmin vaxtdan ötən dövr ərzində şəhərdə xeyli dəyişikliklər baş vermişdir. Bu şəhər, bütövlükdə Qəbələ rayonu ecazkar, çox gözəl bir məkandır. Bu diyarın insanları da mehribandır. Qonaq eyni zamanda Qəbələ V Beynəlxalq Musiqi Festivalını izlədiyini və təbiət qoynunda səslənən gözəl musiqidən zövq aldığını ifadə etmişdir. Rayonda yüksək inkişaf tempinin şahidi olduğunu qeyd edən səlahiyyətli səfir bu halı yüksək qiymətləndirmişdir.

Sonda tərəflər bir-birinə hədiyyələr təqdim etdilər.

## *QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2013-cü İLİN AVQUST AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ QƏBULLARIN VƏ GÖRÜŞLƏRİN QRAFİKİ*

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər, qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Şamlı kəndi | 06.08.2013 | İcra nümayəndəliyi, saat 11⁰⁰ |
| Yengicə kəndi | 13.08.2013 | Kənd məktəbi, saat 11⁰⁰ |
| Yemişanlı kəndi | 20.08.2013 | Kənd məktəbi, saat 11⁰⁰ |
| Aydınqışlaq kəndi | 27.08.2013 | Klub müəssisəsi, saat 11⁰⁰ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə, mədəniyyət və turizm şöbələrinin, hüquq-mühafizə orqanlarının, əhalinin sosial müdafiəsi, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol istismar, baytarlıq, qaz istismar, torpaq və xəritəçəkmə, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.

# Rahib Əhmədov, rayon icra hakimiyyəti başçısının aqrar məsələlər üzrə müavini

(Əvvəli 5-ci səhifədə).

Belə ki, hazırda rayonda 53812 baş iribuynuzlu mal-qara, 219955 baş qoyun-keçi, 998 baş donuz mövcuddur.

Heyvandarlıq məhsulları istehsalı da nəzərə çarpacaq dərəcədə artmışdır. 6 ay ərzində 2011 ton ət, 16628 ton süd, 5810 min ədəd yumurta, 295 ton yun istehsal olunmuşdur. Rayon əhalisi yerli istehsal hesabına ət və süd məhsulları ilə tam təmin olunur. Hazırda qarşıda duran məqsəd əhalinin quş ətinə və yumurtaya olan tələbatının yerli istehsal hesabına ödənməsinə nail olmaqdır.

Rayonumuzda kiçik həcmli quşçuluq təsərrüfatları fəaliyyət göstərir, bu da tələbatı ödəmir.

Əmili kəndində əvvəllər fəaliyyət göstərmiş quşçuluq fabrikinin əsaslı təmiri və genişləndirilməsi işləri aparılır. Zənnimizcə fabrik işə düşdükdən sonra rayon əhalisinin quş ətinə və yumurtaya olan tələbatının ödənməsində əhəmiyyətli nəticələr əldə ediləcəkdir.

Bağçılıq və üzümçülüyün də inkişafına diqqət artırılır. Hazırda rayonda 5603 hektar meyvə bağları və 406 hektar üzüm plantasiyaları vardır. Sahələrə baxışdan məlum olur ki, hər iki sahədən yüksək məhsul istehsalı gözlənilr.

Rayonda yeni fəaliyyətə başlamış tingçilik təsərrüfatı yeni meyvə sortlarının yetişdirilməsində və bağ sahələrinin genişləndirilməsində əhəmiyyətli rol oynayaqcaqdır.

Meyvə və süfrə üzümü toplanışına başlanmışdır. Bazar və ticarət obyektlərində yerli meyvələrin və üzümün satışı təşkil edilmişdir.

Hazırda növbəti məhsul ilinə hazırlıq işlərinə başlanmışdır. Biçilmiş sahələr təmizlənir, yay şumu çıxarılır və toxum tədarükü işləri aparılır.

Bir daha Sizi əmin etmək istəyirəm ki, cənab Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin icrasında rayonumuzun kənd təsərrüfatı əməkçiləri öz səy və bacarıqlarını əsirgəməyəcəklər.

# Namiq Ağayev, Qəbələ rayonu üzrə maliyyə idarəsinin rəisi

**Hörmətli müşavirə iştirakçıları!**

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlər nəticəsində əvvəlki illərdə olduğu kimi 2012-ci il və 2013-cü ilin birinci yarısında da ölkə iqtisadiyyatının davamlı və dinamik artımı təmin edilmiş, əhalinin sosial rifahı xeyli yüksəlmişdir. Qəbələ rayonu üzrə 2013-cü ilin birinci yarısı üzrə yerli gəlirlər 4.071.714 manat proqnoza qarşı 4.225.155 manat (104 faiz) və ya 153.441 manat çox yerinə yetirilmişdir.

«Avtomobil yolları» Məqsədli büdcə fonduna aid olan məbləğ isə 71.227 manat proqnoza qarşı 38.785 manat (54 faiz) və ya 32.442 manat kəsirlə yerinə yetirilsə də, bu ötən ilin müvafiq dövrü ilə müqayisədə 14.479 manat çoxdur.

Yerli gəlirlər üzrə proqnozlaşdırılmış 10 növ gəlirdən 6-ı (fiziki şəxslərdən gəlir vergisi, hüquqi şəxslərin mənfəət vergisi, sadələşdirilmiş vergi, torpaqların icarəyə verilməsindən daxilolmalar, dövlət rüsumu və sair daxilolmalar) proqnoz tapşırıqlar kəsirlə yerinə yetirilərək qeyd olunan gəlirlər üzrə büdcəyə 709.717 manat az vəsait daxil olmuşdur.

Yerli büdcəyə digər gəlir növləri üzrə 863.158 manat çox vəsait daxil olaraq rayonun yerli gəlirləri ümumilikdə 153.441 manat çox yerinə yetirilmişdir.

Yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılmış dotasiya 4.390.817 manat proqnoza qarşı 4.380.000 manat, (99 faiz) və ya 10.817 manat az alınmışdır.

Yerli büdcənin hesabında və təşkilatların ayrı- ayrı xərc maddələri üzrə limit qalığında 1 iyul 2013-cü il tarixə 544.642 manat vəsait qalığı yaranmışdır.



Qəbələ rayonunun 2013-cü ilin birinci yarısının yerli xərclərinin icrası 8.462.531 manat proqnoza qarşı 8.060.513 manat, (95 faiz) və ya 402.018 manat az olmuşdu. O cümlədən, qanunvericilik və icra orqanlarının saxlanması xərcləri üzrə 140.208 manat az (83 faiz), elm xərcləri üzrə 1.193 manat az (81 faiz), təhsil xərcləri üzrə 55.462 manat az (99 faiz), səhiyyə xərcləri üzrə 152.072 manat az (85 faiz), sosial-təminat xərcləri üzrə 2 manat az, (99 faiz), mədəniyyət xərcləri üzrə 43.972 manat az (88 faiz), bədən tərbiyəsi və gənclər siyasəti tədbirləri xərci üzrə 695 manat az (97 faiz), digər kateqoriyalara aid edilməyən fəaliyyət xərcləri üzrə 6.018 manat az, mənzil-kommunal təsərrüfatı xərcləri üzrə 2.396 manat az (99 faiz) və əsas bölmələrə aid edilməyən sair xərclər üzrə 1.426 manat (98 faiz) az icra olunmuşdur.

İstifadə olunmuş vəsaitin 6.899.381 manatı və ya 86 faizi «təhsil, səhiyyə, mədəniyyət xərcləri» bölməsinə yönəldilmişdir ki, bu da ötən illə müqayisədə 181.459 manat çoxdur.

Mövcud qanunvericiliyə uyğun olaraq daxil olmuş vəsaitin 2013-cü il üçün müəyyən edilmiş müdafiə olunan xərclərə yönəldilməsinə tərəfimizdən ciddi əməl edilmişdir. Belə ki, ümumilikdə istifadə olunmuş vəsaitin 7.338.185 manatı və ya 83 faizi əmək haqqı və əmək haqqına üstəlik xərclərə yönəldilmişdir. 2013-cü ilin birinci yarısında yerli xərclərində büdcə təşkilatlarında çalışan işçilərin əmək haqqlarının, həmçinin bir həftə öncə müəllimlərin yay məzuniyyət pullarının ödənilməsi tam təmin edilmişdir.

Qəbələ rayonunun 2013-cü il üçün yerli xərcləri 19.707.805 manat təsdiq edilmişdir ki, bu ötən illə müqayisədə 2.430.980 manat çoxdur. Qəbələ rayonunun 2013-cü il yerli xərclərində dərman və ərzaq xərclərinin, inventar və avadanlıqların alınması, cari və əsaslı təmir xərclərində ötən illərlə müqayisədə əsaslı dərəcədə artım müşayət olunmuşdur.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Nazirlər Kabinetinin ölkənin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasındakı yekun nitqində qeyd etdiyi kimi, «büdcə xərcləri artıqca məsuliyyət də artmalıdır. Eyni zamanda, maliyyə intizamı daha da yüksək səviyyədə olmalı, şəffaflıq tam şəkildə təmin edilməlidir».

Sözsüz ki, Qəbələ Rayonu üzrə Maliyyə İdarəsinin kollektivi cənab Prezidentin nitqində qeyd etdiyi müvafiq tövsiyyə və tapşırıqları layiqincə və məsuliyyətlə icra edəcək.